***Ağlama, gəlinim, qızım, ağlama***

***Qanlı Yanvar günlərinə***

Ağlama kamanım, sazım, ağlama!
Sil bu göz yaşını, gözüm, ağlama!
Gəlinim ağlama, qızım, ağlama,
Dərddən güclüləri dərd əyə bilməz!

Aç qara örpəyi, gülüm, başından,
Çaylar bulanmasm qoy göz yaşından,
Körpən qəm əmməsin ana döşündən,
Göz yaşı tökdürən, göz yaşı silməz.

Demə ki, yurdunda töküldü qanlar,
Biz dağıq, dağlarda gurlar tufanlar,
Zirvədə püskürər odlu vulkanlar,
Təpələr düzənər, dağlar əyilməz!

Qırılan ağacın yerində müdam
Təzə ağac əkər qüdrətli bağban,
Təzə nəsil böyüt, ey dərdi ümman!
Oğulsuz millətə, millət deyilməz!
Dərddən güclüləri dərd əyə bilməz.

Dilbazi M. Ağlama, gəlinim, qızım ağlama : şeir // Seçilmiş əsərləri. – B.: Lider, 2004. – S.11.